UOT:94.(479.24).

"ERMƏNİSTAN ORDUSUNUN MƏĞLUBEDİLMƏZLİYİ" MİFİNİ DARMADAĞIN EDƏN 44 GÜNLÜK MÜHARİBƏ

Dos. Aslanova Emma Əli qızı, t.ü.f.d. Behbudova Təranə Gəray qızı
Gəncə Dövlət Universiteti
behbudovaterane@bk.ru

Xülasə: *Silahlı Qüvvələrimiz 30 illik "Ermənistan ordusunun nəğlubedilməzliyi" mifini 44 gündə darmadağın etdi. Azərbaycan Ordusunun sentyabrın 27-də işğalçı Ermənistan silahlı qüvvələrinə qarşı başladığı əks-hücum əməliyyatında əldə etdiyi möhtəşəm qələbələrin, cəbhə uğurlarımızın ən başlıca səbəbi Prezident, Ali Baş Komandan İlham Əliyevin son 17 ildə həyata keçirdiyi güclü dövlət, güclü ordu strategiyası, milli birlik və döyüşçülərimizin ruh yüksəkliyi idi. Davam edən müharibə ərzində 4 oktyabrda Cəbrayıl, 17 oktyabrda Füzuli, 20 oktyabrda Zəngilan,25 oktyabrda Qubadlı və 8 noyabrda Şuşa şəhəri işğaldan azad edilmişdi Sentyabrın 27-də Qarabağda ordumuzun başladığı uğurlu əks-həmlə əməliyyatları nəticəsində noyabrın 9-dək 5 şəhər, 4 qəsəbə və 286 kənd işğaldan azad edildi. Beləliklə, Ali Baş Komandan İlham Əliyevin rəhbərliyi ilə sentyabrın 27-dən başlanan Vətən müharibəsi şanlı qələbə ilə sona çatdı, 44 gün davam edən hərbi əməliyyatlar çərçivəsində Azərbaycan Ordusu işğalçı Ermənistanın 30 il ərzində qurduğu silahlı qüvvələrini darmadağın edərək, böyük zəfərə imza atdı.Bu zəfərdə Azərbaycana dəstək olduqlarını bildirən qardaş Türkiyə və Pakistan həm döyüş meydanında, həm də masada mövcudluğunu bir daha bütün dünyaya göstərdi.*

Açar sözlər: Azərbaycan, Ermənistan, müharibə, kənd, əhali, mübarizə.
Ключевые слова: Азербайджан, Армения ,война, село, население, борьба.
Key words: Azerbaijan, Armenian,war, peasant, population, struggle.

Ermənilər «Dənizdən-dənizə Böyük Ermənistan» yaratmaq iddiasına çatmaq üçün XIX əsrin 80-ci illərindən başlayaraq azərbaycanlılara qarşı kütləvi qırğınlar törətmişdilər.1890-cı ildə yaradılmış millətçi-terrorçu erməni partiyası olan "Daşnaksütyun" da əsas məqsədi Türkiyə ərazisində "Böyük Ermənistan" təbliğatı gücləndirilməli, silahlı terror dəstələri yaradılmalı, hökumət idarələrinin talan və qarət edilməsinə başlanılmalı idi."Hnçaq" və "Daşnaksütyun" terrorçuları Şərqi Anadolu və Azərbaycan kəndlərini çapıb-talamaqda bir-biri ilə rəqabət aparır, sanki "yarışırdılar". Ermənistandan Dağlıq Qarabağa məqsədyönlü şəkildə gətirilmiş muzdlu terrorçu quldur dəstələri və himayəçi dövlətlərin hərbi qüvvələrinin köməyi ilə Azərbaycanlılara qarşı 1905-1906, 1918-1920, 1948-1953 və 1988-1994-cü illərdə çoxsaylı soyqırımlar, kütləvi qırğınlar və deportasiyalar həyata keçirmiş erməni millətçiləri, eyni zamanda, minlərlə tarixi abidələri, nadir maddi və mənəvi mədəniyyət əsərlərini, məscidləri, minarələri, qəbiristanlıqları yerlə-yeksan etmiş, tarixi adlara qarşı mənəvi soyqırımı törətmişlər.

1988-1994-cü illər arasındakı dövrdə Azərbaycanın Dağlıq Qarabağ bölgəsini və bölgənin ətrafındakı 7 rayonu işğal edərək 26 il ərzində vaxtilə çiçəklənən bir diyarı "boz zonaya" çevirmişdi.1991-1993-cü illərdə azərbaycanlılara qarşı bir neçə dəfə işğalçılıq və soyqırım siyasəti həyata keçirdilər.Azərbaycanın beynəlxalq birlik tərəfindən tanınmış sərhədlərini pozaraq, ölkəyə müdaxilə etmiş Ermənistan silahlı birləşmələri Rusiya hərbi qüvvələrinin bilavasitə yaxından köməyilə Dağlıq Qarabağı və ətraf rayonları, respublika ərazisinin 20 faizini işğal etdilər. Bir milyondan çox Azərbaycan vətəndaşı doğma yurd-yuvasından didərgin salındı, öz Vətənində qaçqına və məcburi köçkünə çevrildi. İşğal nəticəsində Azərbaycana aid cəmi uzunluğu 25 min km olan avtomobil yolu, yenə cəmi uzunluğu 3984 m olan 160 körpü, 14,5 min km uzunluğunda elektrik xətti, 2500 elektrik transformatoru, 2 min km qaz boru xətti, 160 su anbarı, 34-dən çox qaz dağıtım stansiyası,140 min şagirdin oxuduğu olan 600 məktəb, 53 min şagirdin təhsil adlığı 65 peşə məktəbi, 700

səhiyyə ocağı, 800 nəfərlik xəstəxana, poliklinikalar, doğum evləri, aptek binaları, təcili yardım xəstəxanaları, 26 müzey, 8 rəsm sərgisi, 4,6 milyon kitab və əlyazma saxlanan 927 kitabxana, 85 incəsənət məktəbi, 20 mədəniyyət sarayı, 4 dövlət teatrı dağıtılmıştır.

1993-2003-cü illərdə Ulu Öndər Heydər Əliyevin uğurlu siyasəti nəticəsində "müvəqqəti atəşkəs rejiminin" yaradılması ilə Ermənistanın işğalçılıq siyasəti dayandırılmış, ölkədə daxili sabitliyə nail olunmuş, dövlətçiliyimiz möhkəmləndirilmiş, hərbi sənayemiz qurulmuş, siyasi, iqtisadi, hüquqi və s. sahələrdə əsaslı islahatlar keçirilmiş, qlobal layihələrə imza atılmış, respublikamız tədricən dünya birliyinin sıralarında yer almış və sayılıb-seçilməyə, söz sahibi olmağa başlamışdı.Lakin 2008-ci ilin mart ayında Ermənistan silahlı qüvvələri Tərtərdə, 2010-cu ulin iyun ayinda Çaylı yaxınlığında, 12 noyabr 2014-cü il Ağdam rayonunun Kəngərli kəndi yaxınlığında hərbi təxribatlar törətmişdir. Ulu Öndər Heydər Əliyevin layiqli varisi və davamçısı Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin uğurlu siyasəti nəticəsində müasir beynəlxalq standartlara cavab verən güclü və mütəşəkkil Azərbaycan Ordusu yaradılmış, müasir silahlar və döyüş texnikaları ilə silahlandırılaraq NATO nümunəsində ordu quruculuğu həyata keçirilmişdi ki, onun hansı gücə qadir olduğunu 2016-cı ilin aprel döyüşləri göstərdi. 2016-cı il aprelin 1-2 Azərbaycan və Ermənistan silahlı qüvvələri arasında baş vermiş "Dördgünlük müharibə" adlandırılan hərbi münaqişə Azərbaycan Silahlı Qüvvələrinin qələbəsi ilə nəticələnmiş,Tərtər rayonunun Talış kəndi ətrafındakı yüksəkliklər və Seysulan kəndi, Cəbrayıl rayonunun Lələ təpə yüksəkliyi və Cocuq Mərcanlı, Goranboy rayonunun Gülüstan kəndi və Tərtər rayonunun Madaqiz kəndi istiqamətində yollar düşməndən azad olunmuşdur.

2018-ci ildə Cünnüt əməliyyatında da Azərbaycan Ordusu öz gücünü,döyüş əzmini bütün dünyaya bir daha nümayiş etdirdi. 2020-ci il iyulun 12-də Ermənistan-Azərbaycan dövlət sərhəddinin Tavuş mərzi və Tovuz rayonu ərazilərində baş verən döyüşlərdə Ermənistan silahlı qüvvələrinin hərbi təxribatı nəticəsində 16 əsgər həlak olmuşdur. 27 sentyabr 2020-ci il səhər saatlarında Ermənistan Silahlı Qüvvələri genişmiqyaslı təxribat törədərək cəbhəboyu zonada yerləşən Azərbaycan ordusunun mövqelərini və yaşayış məntəqələrini iriçaplı silahlar, minaatanlar və müxtəlif çaplı artilleriya qurğularından intensiv atəşə tutmuşdur.Ermənistan ordusunun döyüş aktivliyinin qarşısını almaq, mülki əhalinin təhlükəsizliyini təmin etmək məqsədilə Azərbaycan ordusunun komandanlığı tərəfindən qoşunların bütün cəbhə boyu sürətli əks-hücum əməliyyatı başlanması barədə qərar verilmişdi.

Əfqanıstan, Ukrayna, Pakistan, Türkiyə və eləcədə Şimali Kipr Türk Respublikası Azərbaycana dəstək olduqlarını bildirmişdilər. Vətən müharibəsinin ilk günlərindən, ilk saatlarından etibarən Azərbaycan xalqı Türkiyənin dəstəyini hiss etdi. Türkiyənin Cümhurbaşqanı Rəcəb Tayyib Ərdoğan ilk saatlardan Azərbaycanın haqq işinə öz dəstəyini verdi. Türkiyənin Azərbaycana verdiyi siyasi və mənəvi dəstək hər bir Azərbaycan vətəndaşını qürurlandırır, sevindirir. 10 dekabr 2020-ci il paradında Hökumət tribunasında isə Azərbaycanın və Türkiyənin liderləri – İlham Əliyev və Rəcəb Tayyib Ərdoğan yanaşı durub sanki bütün dünyaya, o cümlədən xalqımızın düşmənlərinə bəyan edirdilər: Baxın, 1918-ci ildə olduğu kimi, 100 il sonra 2018-ci ildə də biz yenə bir yerdəyik. Biz bir millət, iki dövlətik. Azərbaycan Ordusunun yüksək peşəkarlığı, döyüş əzmi haqqında qardaş Türkiyənin xarici işlər naziri Mövlud Çavuşoğlu dövlətimizin başçısını qələbə münasibətilə təbrik edərkən, deyib: "Sizin qələbəniz, bizim qələbəmizdir, – bu böyük zəfər münasibətilə təbrik edirik. Ali Baş Komandan olaraq, Sizin rəhbərliyinizlə qəhrəman Azərbaycan Ordusu nə edə bildiyini dosta, düşmənə nümayiş etdirdi, eyni zamanda, türkün gücünü də göstərdi. Ulu öndərimiz Heydər Əliyevin vəsiyyətinə əməl edərək həmişə bir yerdə olacağıq!

Azərbaycan Ordusunun sentyabrın 27-də işğalçı Ermənistan silahlı qüvvələrinə qarşı başladığı əks-hücum əməliyyatında əldə etdiyi möhtəşəm qələbələrin, cəbhə uğurlarımızın ən

başlıca səbəbi Prezident, Ali Baş Komandan İlham Əliyevin son 17 ildə həyata keçirdiyi güclü dövlət, güclü ordu strategiyası, milli birlik və döyüşçülərimizin ruh yüksəkliyi idi. Davam edən müharibə ərzində 4 oktyabrda Cəbrayıl, 17 oktyabrda Füzuli, 20 oktyabrda Zəngilan, 25 oktyabrda Qubadlı və 8 noyabrda Şuşa şəhəri işğaldan azad edilmişdir. Beləliklə, Ali Baş Komandan İlham Əliyevin rəhbərliyi ilə sentyabrın 27-dən başlanan Vətən müharibəsi şanlı qələbə ilə sona çatdı, 44 gün davam edən hərbi əməliyyatlar çərçivəsində Azərbaycan Ordusu işğalçı Ermənistanın 30 il ərzində qurduğu silahlı qüvvələrini darmadağın edərək, sentyabrın 27-də Qarabağda ordumuzun başladığı uğurlu əks-həmlə əməliyyatları nəticəsində noyabrın 9-dək 5 şəhər, 4 qəsəbə və 286 kənd işğaldan azad edildi. Cəbrayıl şəhəri və rayonun 90 kəndi, Füzuli şəhəri və rayonun 53 kəndi, Zəngilan şəhəri, rayonun Mincivan, Ağbənd, Bartaz qəsəbələri və 52 kəndi, Xocavənd rayonunun Hadrut qəsəbəsi və 35 kəndi, Tərtər rayonunun 3 kəndi, Qubadlı şəhəri və rayonun 41 kəndi, Xocalı rayonunun 9 kəndi, Şuşa şəhəri, Laçın rayonunun 3 kəndi, həmçinin Ağdərə və Murovdağ istiqamətlərində bir neçə strateji yüksəklik, Zəngilanda isə Bartaz, Sığ ırt, Şü kü rataz yüksəkləri və daha 5 adsız yüksəklik yağılardan təmizlədi. Dağlıq Qarabağdakı ən böyük ikinci şəhər olan Şuşanın azad edilməsindən sonra İlham Əliyev, Vladimir Putin və Nikol Paşinyan arasında 10 noyabr 2020-ci il, saat 00:00-dan etibarən bütün döyüş əməliyyatlarını dayandıran atəşkəs bəyanatı imzalandı. Müqaviləyə əsasən, Azərbaycan müharibə zamanı işğaldan azad etdiyi ərazilərə nəzarəti əlində saxladı. Ermənistan isə işğal altında olan digər ətraf əraziləri Azərbaycana qaytardı. Azərbaycan, həmçinin Türkiyə və İranla həmsərhəd olan Naxçıvana dəhliz əldə etdi. Təxminən 2000 rus əsgəri Ermənistan və Dağlıq Qarabağ arasındakı Laçın dəhlizi boyunca ən azı 5 il müddətinə sülhməramlı qüvvələr olaraq yerləşdirildi. Azərbaycanın şanlı tarixinə 10 noyabr günü qızıl hərflərlə daxil oldu. Belə ki, 44 gün davam edən hərbi əməliyyatlar çərçivəsində Azərbaycan Ordusu Ermənistanın 30 il ərzində qurduğu silahlı qüvvələrini darmadağın etdi və düşmən məğlubiyyətini etiraf edərək ağ bayraq qaldırdı.

Azərbaycan Respublikası Müdafiə Nazirliyinin yaydığı məlumata əsasən Vətən müharibəsində Silahlı Qüvvələrimizin 2881 nəfər hərbi qulluqçusu həlak olmuşdur. Mənfur düşmən döyüş meydanında məğlubiyyətə uğrayarkən mülki əhaliyə qarşı hərbi cinayətlər törədib, Azərbaycanın şəhərləri ballistik raketlərlə, fosforlu bombalarla, kasetli bombalarla atəşə tutub. Bu namərd atəş nəticəsində 100-ə yaxın mülki vətəndaş, onların arasında uşaqlar, qadınlar həlak olublar. Dörd yüzdən çox mülki vətəndaş yaralanıb, beş mindən çox ev dağıdılıb, ya da ki, o evlərə ziyan vurulub. Rəsmi olaraq, ilk ərazilərin azad olunma xəbərindən sonra Ermənistan Gəncə, Mingəçevir, Xızı, Abşeron, Füzuli, Tərtər və Cəbrayıl şəhərlərini raket atəşinə tutub. Azərbaycanın bu müharibədə verdiyi mülki itkilərdən bəhs edən İlham Əliyev deyib ki, "nəticədə 11 nəfəri uşaq olmaqla, 94 mülki şəxs qətlə yetirilmiş, 400-dən artıq insan yaralanıb".

44 gün davam edən müharibə nəticəsində Ermənistan tərəfinin məlumatlarına əsasən döyüşlərdə 5000 erməni hərbçisi həlak olmuş,10 ədəd S-300 və onun taktiki-döyüş vasitələri, 366 tank, 352 müxtəlif çaplı top, 22 ədəd Pilotsuz Uçuş Aparatı, 5 Su-25 təyyarəsi, 50 Tor, Osa, Kub, Kruq modelli zenit-raket kompleksindən məhrum olunub. Eyni zamanda döyüş əməliyyatları çərçivəsində xüsusi əhəmiyyətə malik 97 ədəd Qrad, 4 ədəd Smerç, 2 Uraqan, 1 Tos odsaçan, 2 Uraqan, 1 ədəd Yars, Toçka-U, ballistik raketlər, Elbrus raket kompleksləri də məhv edilib.

Ədəbiyyat

1.Azərbaycan tarixi,7cilddə,VII cild,Bakı,2003.
2.Azərbaycan Respublikası 1991-2001. Bakı,2001.
3.Azərbaycanlıların soyqırımı haqqında.Bakı,1998
4.Abdullayev Ə.Ermənistanın Azərbaycana qarşı hərbi təcavüzü və Heydər Əliyev sülh strategiyası.Bakı,1999

5.Azərbaycan Cümhuriyyəti (1918-1920). Bakı, 1998
6.XX əsr Azərbaycan tarixi. Bakı, 2004
7.Nəcəfov B. Azərbaycan Demokratik Respublikası (daxili və xarici siyasət). Bakı, 1992
8.Nəsibzadə N. Azərbaycanın xarici siyasəti. Bakı, 1996
9.Https://az.vikipediya.org/wiki/

44 DAY WAR THAT SHATTERED THE MYTH OF THE INVINCIBILITY OF THE ARMENIAN ARMY

Aslanova Emma Ali, Behbudova Tarana Geray

Summary

Our Armed Forces destroyed the 30 year old invincibility of the Armenian army in 44 days. The Patriotic war?which began on september 27 under the leadership of Commander Ilham Aliyev ended with a glorious victory.During the 44 day military operations,the Azerbaijani Army achieved a great victory by destroying the armed forces of the occupying Armenia for 30 years/Expressing their support for Azerbaijan in this victory,Turkey and Pakistan our brother's country once again showed to the world that they are present both on the battlefield and at the table.

44 ДНЕВНАЯ ВОЙНА РАЗРУШИВШАЯ МИФ О НЕПОБЕДИМОСТИ АРМЯНСКОЙ АРМИИ

Асланова Емма Эли гызы, Бехбудова Тарана Герай гызы

Резюме

Наши Вооруженные силы за 44 дня разрушили непобедимость 30 летней армянской армии.Таким образом Отечественная война, начавшаяся 27 сентября под руководством Верховного Главнокомандующего Ильхама Алиева завершились славной победой. В рамках 44-ех дневной военной операции азербайджанская армия добилась большой победы, уничтожив вооруженные силы оккупирующей Армении за 30 лет.Выразив свою поддержку Азербайджану в этой победе братские страны Турция и Пакистан еще раз показали миру,что они присутствуют как на поле битвы,так и за столом.

Rəyçi: dosent Sevinc Bağırova
Azərbaycan tarixi kafedrasının 19 mart 2021-ci il tarixli iclasın 08 saylı protokolu
Daxil olma tarixi 30 matr 2021-ci il

UOT: 94(479.24)

DAĞLIQ QARABAĞ MUXTAR VİLAYƏTİNİN YARADILMASI ƏDALƏTSİZLİK AKTI KİMİ

t.ü.f.d., dosent Əliyeva Gülara Əlvan qızı
Gəncə Dövlət Universiteti
gularaalvan@gmail.com

Xülasə: *Sovet hakimiyyətinin ilk günlərindən ermənilər himayə edəcəyi aydın görünürdü. Sovet hakimiyyətinin qəbul etdiyi ilk dekretlərdən birinin üzərində nəzarəti S.Şaumyana tapşırılması çox şeydən xəbər verirdi. Ondan sonra Sovet rəhbərliyi Qafqaza S.Kirovu göndərir. O, yerli vətənpərvər qüvvələrə qarşı amansız mübarizəyə başlamış, ermənilərin meydan sulaması üçün əlindən gələni etmişdir. Məhz S.Kirov 1921-ci il iyulun 4-də Dağlıq Qarabağın Azərbaycanın tərkibində saxlanılmasının əleyhinə səs vermişdi. Bu cəhdi baş tutmadıqda o, vilayət ermənilərinə muxtariyyət verilməsi istiqamətində çalışmış və*